**"İqlim üzrə maliyyə boşluğunun aradan qaldırılması: uşaqlar üçün iqlim fəaliyyətinə investisiya" mövzusunda müzakirə aparılıb**

Noyabrın 16-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) UNICEF-in təşkilatçılığı ilə "İqlim üzrə maliyyə boşluğunun aradan qaldırılması: uşaqlar üçün iqlim fəaliyyətinə investisiya" mövzusunda müzakirə aparılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən UNICEF-in tərəfdaşlıq üzrə icraçı direktorunun müavini Kitti van der Heijden iqlim dəyişikliyi mövzusunun hər dövrdə aktual məsələ olduğunu söyləyib. O bildirib ki, iqlim dəyişikliyi gələcək nəsillərin taleyini həll edəcək: "Bu məsələ uşaqların təhsilinə, sağlamlığına, onların koqnitiv inkişafına mənfi təsir edir. İqlimlə əlaqəli maliyyə vəsaitlərinin yalnız 2.4 faizi uşaqlara aiddir. Bu, qəbuledilməzdir".

Kitti van der Heijden 5 yaşdan kiçik uşaqların ən mühüm probleminin qida çatışmazlığı olduğunu vurğulayıb. Bildirib ki, bu problemin yaratdığı fəsadlar ömür boyu özünü göstərir.

Daha sonra UNICEF-in hazırladığı videoçarx nümayiş olunub. Videoçarxda iqlim dəyişikliyinin təkcə planetimizi dəyişdirmədiyi, həm də uşaqların gələcəyinə mənfi təsir etdiyi vurğulanıb. Həmçinin 5 yaşından kiçik uşaqların xəstəliklərə davamsız olduğu, körpələrin vaxtından əvvəl dünyaya gəldiyi qeyd olunub.

COP29-un iqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai iqlim dəyişikliyi ilə mübarizənin hər kəsdən birgə əmək sərf etməyi tələb etdiyini söyləyib. O bildirib ki, bu gün bu mövzuda veriləcək qərarlar bizim gələcəyimizi təyin edəcək.

Görüş müzakirələrlə davam edib.

**AZƏRTAC**
**2024, 16 noyabr**